# İRAN İSLAM RESPUBLİKASININ İQTİSADİ SİYASƏTİ

**R.B.ASLANOV**
***Bakı Dövlət Universiteti***
***aslanovrovsan@rambler.ru***

*1978-1979-cu illər inqilabından sonra şahlıq rejiminin dağılması ilə İranda yeni sosial-iqtisadi münasibətlər formalaşdırılmağa başlandı. Məqalədə İslam rejiminə uyğun şəriətə əsaslanan iqtisadi münasibətlər, kooperativ və şəxsi sahibkarlığın qarşılıqlı inkişafının konseptual aspektləri tədqiq edilmişdir.*

**Açar sözlər:** iqtisadiyyat, siyasət, islam, neft, İran

XX əsrin 60-70-ci illərində orta və kiçik sahibkarlığın inkişaf etdirilməsi kiçik sahibkarlığın müasir sahələrinin vüsət almasına səbəb oldu. Lakin dövlətin iri sənaye sahibkarlığı sahəsində inhisara yardım etməsi ilk öncə kiçik sahibkarlığın sıradan çıxarılmasına, narazı kütlələrin artmasına səbəb olurdu. Buna görə də, 1978-1979-cu illər antiamerika – antişah inqilabında kiçik sahibkarların iştirakı daha çox nəzərə çarpırdı. Qeyd etmək lazımdır ki, şəhər əhalisinin məşğul hissəsinin 60% -i kiçik sahibkarlara məxsus müəssisələrdə çalışırdı.

Şahlıq rejimi siyasi partiyaların, cəmiyyətlərin, ayrı-ayrı qrupların leqal fəaliyyəti üzərinə qoyduğu qadağalar nəticəsində inhisarçı qüvvələr tərəfindən sıxışdırılan kiçik sahibkarlar və onlarla üzvü əlaqədə olan bazar əhalisi öz istəyindən asılı olmayaraq narazı şiə ruhanilərinin düşərgəsinə keçdilər.

1978-1979-cu illər inqilabının əsas hərəkətverici qüvvələrini təşkil edən əhalinin bu qrupunun şahlıq rejimi devrildikdən sonra yeni rejimdən öz payını tələb etməsi qanunauyğun hesab edilməli idi.

Kapitalizm və sosializmin iqtisadi modelinin qəbul edilməzliyini irəli sürən

İslam inqilabının əsas aparıcı rəhbərləri ayətullah R.Xomeyninin "Nə Qərb (kapitalizm), nə Şərq (sosializm), İslama doğru" ideyasını rəhbər tutaraq əhalinin bütün təbəqələrinin maraqlarını ehtiva edən iqtisadi modul və qanunlar qəbul edilməsini tələb edirdi.

Lakin təkukladlu təsərrüfat sistemi qurmaq cəhdinin dərhal iflasa uğrayacağını duyan islam rejiminin liderləri çox ukladlı iqtisadi seçimə üstünlük verdilər.

Qeyd olunmalıdır ki, Xomeyni islam cəmiyyətinin iqtisadi əsaslarını şiə ruhanilərinin əsas ideoloqlarından biri Məhəmməd Bağır əs-Sədrin gəlirləri

tələbat səviyyəsində saxlamaq, həddən artıq yığıcılığa və iqtisadiyyatın bir təbəqə əlində cəmlənməsinə qarşı mübarizə, qiymətlərin tənzimlənməsi, sələmçiliyin qadağan edilməsi, imperialist dövlətlərin iqtisadi və siyasi ağalığına qarşı mübarizə, təhsilin və tibbi xidmətin dövlət tərəfindən maliyyələşdirilməsi təlimi əsasında qurulmasını əsas götürürdü (9, 188).

İranda İslam ideoloqlarının iqtisadi görüşləri Xomeyninin iqtisadi məsələlər üzrə müşaviri, Əbülhəsən Bənisədrin "Eqtesade tohidi" adlı kitabında nəşr olunan ideyalar əsasında təşkil edilirdi.

A.Bənisədrə görə "tohid" prinsipləri islam cəmiyyətində "monolit birlik" və ya "ilahi harmoniya" qaydasında həyata keçirilməli idi. Bu nəzəriyyənin başlıca mahiyyəti ictimai sərvətin bir hissəsindən istifadə etməklə inhisarçılığın neqativ təsirinə qarşı mübarizə aparılmalı, dövlət sektoru ilə şəxsi kapital arasında balanslaşdırılmış siyasət həyata keçirilməli idi (5, 4-11). Ədalətli islam iqtisadiyyatı prinsipi ideyasını inkişaf etdirən A.Bənusədr şəxsi əmək sayəsində ağıla sığan, halal gəlir gətirən xüsusi mülkiyyət formasını ön plana çəkirdi.

Bənusədrin abstrakt nəzəriyyəsindən bir qədər fərqli olaraq Müvəqqəti hökumətin rəhbəri M.Bazarqan və onun kabinetinin üzvlərinin əksəriyyəti "islam yolu" prinsipinin inkişafın liberal-burjua qanadının tərəfdarı idilər. Bazarqana görə islam cəmiyyətində dövlət və xüsusi mülkiyyəti təmsil edən "qarışıq iqtisadi" forma əsas prinsip kimi qəbul edilməli, dövlət isə orta və kiçik sahibkarlığa yardım göstərməklə, İslam cəmiyyətində mənəvi sahələrin qoruyucusu rolunda çıxış etməli idi (6, 78-102). İnqilab qələbə çaldıqdan dərhal sonra 1979-cu il fevralın 24-də müvəqqəti hökumət şah ailəsinə mənsub və inqilaba xəyanət edən sahibkarların müəssisələrinin müsadirə olunması haqqında qərar qəbul etdi.

Bu qərar inqilab dövründə bitərəf qalan və ya inqilabi hərəkatda iştirak etməyən mötədil sahibkarları da qorxuya salmışdı və onların bəziləri öz müəssisələrinin fəaliyyətini dayandırmağa məcbur olmuşdu. Sənaye müəssisələrindən gələn gəlirlərin dayanması təhlükəsi qarşısında iqtisadiyyat naziri Ardalan şəxsi mülkiyyətin qorunacağı haqqında xüsusi bəyanat verməyə məcbur oldu. Sahibkarları şübhədən çıxartmaq üçün hökumət şəxsi sənaye müəssisələrinin qorunması məqsədi ilə 1979-cu il mart ayında 5 milyard rial pul ayrılması haqda xüsusi sərəncam verdi. Bununla da İslam qaydalarına uyğunlaşdırılması iddia edilən iqtisadi sistem kiçik dəyişikliklərə baxmayaraq öz ənənəvi xarakterini saxladı.

1978-1979-cu illər inqilabının qələbəsindən sonra ölkə iqtisadiyyatının dəyişməz qalması faktı onu göstərir ki, islamçıların yeni vahid iqtisadi nəzəriyyəsi yox idi. İslam inqilabı epoxal hadisə olduğundan onu Rusiya və Kuba inqilabları ilə səhvən bir sıraya qoyurlar. Yuxarıda adları çəkilən ölkələrdə əvvəlki iqtsadi prinsiplər faktiki olaraq dəyişdiyi halda İranda keçmiş quruluşdan miras qalan iqtisadi siyasət davam etməkdə idi. Siyasi hakimiyyətin struk-

turunda köklü dəyişiklik edilməsinə baxmayaraq, iqtisadiyyatda hər hansı radikal çevriliş baş vermədi.

İran İslam Respublikasının konstitutsiyasının 44-cü maddəsinə əsasən iqtisadi qurum üç dayaq üzərində: dövlət, kooperativ və xüsusi bölmədə tənzimlənmiş və dəqiq proqramlar ilə həyata keçirilməli idi (7, 39).

Əsas qanunun 44-cü maddəsinə əsasən dövlət bölməsi bütün iri sənaye, əsaslı sənaye sahəsi, xarici ticarət, böyük mədənlər, bank işi, sığorta, enerji təminatı, sədlər və iri su şəbəkələri, radio və televiziya, poçt, teleqraf və telefon, hava yolları, gəmiçilik, şosse və dəmiryol şəbəkəsi bu kimi sahələri əhatə edir ki, bunlar ümumi mülkiyyət olmaqla dövlətin ixtiyarında qalırdı (7, 39). Bununla dövlət bölməsinin sərhədləri dəqiq müəyyənləşdirilirdi.

Həmin maddəyə əsasən kooperativ bölməsi şirkətlər, istehlak və məhsul bölgüsü üzrə kooperativ müəssisələrini əhatə edir ki, islam qaydaları əsasında şəhər və kəndlərdə təşkil edilirdi.

Xüsusi bölmə dövlət və kooperativ təsərrüfatlarının faliyyətini təkmilləşdirən kənd təsərrüfatı, heyvandarlıq, sənaye, ticarət və xidmət sahələrini əhatə edir.

Hər üç bölmə islam qanunlarından kənara çıxmamalı, ölkənin iqtisadi inkişafına xıdmət etməli idi.

Konstitutsiya bu üç bölmə arasında konkret sərhəd qoymur. Lakin dövlət bölməsinə sənayenin və infrastrukturun əsas hissəsi verildiyindən demək olar ki, konstitutsiya hazırlanərkən bu sahəyə daha çox üstünlük verilmişdi. İri müəssisə yaratmaq ancaq dövlətə məxsus olduğundan, xüsusi mülkiyyətçinin iri və ya inhisarçı kapitala malik olmaq şansı sıfra bərabər idi.

Əsas qanunun 43-cü maddəsində İran İslam Respublikasının iqtisadiyyatının əsas prinsipləri müəyyən edilir.

Əsas ehtiyacların təminatı: ev, ərzaq, paltar, səhiyyə, tibbi yardım, təlim və təhsil, hamı üçün ailə qurmaq imkanları, işlə təmin olunma, faizsiz borc verilməsi və s. vasitələrlə yanaşı bütün sərvətlərin bir əldə cəmlənməsi qadağan edilir və bütün bunların iqtisadi proqramlarla tənzimlənməsi ön plana çəkilirdi. Burada peşə seçimi azadlığı əsas götürülməklə inhisarçılıq, möhtəkirlik, sələm və digər şəriətə uyğun olmayan prinsiplər qadağan olunurdu (7, 38-39).

İqtisadiyyatda xırda burjua ənənələrini bərpa edən bir sıra güzəştlər də əsas qanunun 49-cu maddəsində öz əksini tapmışdır. Qanunun bu bəndinə əsasən "Dövlət sələm, qəsb, rüşvət, əyri yol ilə mənimsəmə, oğurluq, qumar, vəqf əmlakından sui-istifadə, sahibsiz torpaqların və başqa ümumi əmlak satışından, fəsad yerləri və başqa qanunsuz yerlərdən müsadirə edilmiş sərvətləri öz qanuni sahibinə təhvil verməyə borcludur və bu sərvətin sahibi məlum olmadıqda beytül-mala verilməlidir. Bu hökm şəriət qanunları baxımından yoxlanılıb araşdırılmalı və sübuta yetirilməli, dövlət vasitsılə icra edilməlidir" (7, 41-42).

Qanunla "özgə əməyinin istismarı, sahibkarlığın istənilən formasında inhisarçılıq" qadağan edilir. Eyni zamanda islam iqtisadi quruluşu daşınan və daşınmaz əmlaka, kənd təsərrüfatı mexanizmlərinə, dəzgahlara, tibbi avadanlıqlara mülkiyyət hüququnu tanıyırdı.

Keçmiş hakim İslam Cümhuruyyət partiyasının proqramında kiçik sahibkarlığın iqtisadiyyatda əhəmiyyətinə xüsusi yer verilirdi. Həmin proqramda deyilirdi:"İqtisadiyyatın praktiki strukturu bir nəfər və ya bir qrup tərəfindən idarə olunan bir neçə kiçik müəssisədən ibarət olmalıdır (10, 150).

Kiçik və orta istehsal sahəsi proqramda deyildiyi kimi xüsusi və kooperativ bölmədə inkişaf etdirilərək və bu dövlət bölməsinə qarşı sağlam rəqabət yaradaraq dövlət bölməsini iri kapitalistə çevrilməyə imkan verməməli idi.

Qeyd etmək lazımdır ki, yeni iqtisadi qanunlar layihəsi islam rejiminin formalaşması ilə bir zamanda yaranırdı. Lakin hökumətlə parlament, parlamentlə Məclislə Nəzarət Şurası arasındakı ziddiyyətlər nəticəsində bu qanunlar xeyli ləngiyir və dəyişdirilirdi. Bu ziddiyyətlər daha çox yeni aqrar qanunun işlənməsi və qəbul edilməsi zamanı özünü bariz şəkildə göstərmişdi.

Bazarqan hökuməti əvvəlki aqrar qanunların dəyişdirilməsinin əleyhinə idi. Müvəqqəti hökumət istefa verdikdən sonra 1980-ci il fevralın 27-də İslam inqilabı Şurası tərəfindən aqrar qanun qəbul edildi (11, 107). Qanuna görə xam torpaqlar, dövlət, şah ailəsinə məxsus torpaqlar həmçinin iri torpaq sahiblərinin artıq əraziləri torpaqsız və aztorpaqlı kəndlilərə, kənd təsərrüfatı məktəblərinin müdavimlərinə, həmçinin hər bir arzu edən şəhərliyə verilə bilərdi. Qanunda torpaq sahəsi orta torpaq sahəsindən üç dəfə böyük ərazi iri torpaq sahibliyi adlandırılırdı. Belə iri torpaq sahələrinin artıq hissəsi əvəzi ödənilmədən müsadirə olunmalı idi. Bu qanun Parlament tərəfindən 1980-ci il aprelin 15-də təsdiq edildi.

Qanuna qarşı iri sahibkarlar, həmçinin bir sıra ruhani təbəqələri etiraz etdilər. Bu etirazlar bəzən ciddi qarşıdurmaya səbəb olurdu. Məhz bunun nəticəsi idi ki, 1980-ci ilin noyabrında Xomeyninin şəxsi göstərişi ilə bu qanunun fəaliyyəti dayandırıldı və aqrar qanunun yeni layihəsinin hazırlanması üçün parlament komissiyası yaradıldı.

Aqrar qanunun yeni layihəsi 1981-ci ilin noyabrında məclisin müzakirəsinə verildi və 1982-ci ilin dekabrında Parlament tərəfindən təsdiq edildi. Yeni qanuna əsasən torpaq sahiblərinə xeyli güzəşt edilirdi. İstifadəyə yararlı torpaq kəndliyə icarəyə də verilə bilərdi. Fərdi torpaqlar ən sonda bölüşdürülməli idi. Lakin torpaq sahibliyinin məhdudlaşdırılması haqqında qanun konstitutsiyaya və şəriət normalarına uyğun olmadığı üçün Nəzarət Şurası tərəfindən ləğv edildi. İmam Xomeyninin göstərişinə əsasən 1982-ci il aqrar qanunu 1984-cü ilin mayında ləğv edildi.

1984-cü ildə yeni aqrar qanun layihəsi işlənib hazırlandı. Yeni qanun layihəsinə görə iri torpaq sahiblərinin torpaqları az torpaqlı kəndlilərə, yüksək məhsuldarlıq əldə edən kəndlilərə satılmasına icazə verilirdi. Nəhayət uzun sürən disskusiyalardan sonra 1986-cı ilin noyabrında Məclis aqrar qanun layihəsini təsdiq etdi. Burada torpaqların əvvəlki bölgüsü olduğu kimi saxlanılırdı.

Ümumiyyətlə, XX əsrin 70-ci illərinin sonu-80-ci illərdə İranın iqtisadi həyatı daxili və xarici faktorların ciddi təsiri altında formalaşırdı. Bunlara 70-ci illərin ortalarında baş vermiş dünya iqtisadi böhranı, 1978-1979-cu illər

inqilabi hərəkatının hakimiyyətin və iqtisadiyyatın xarakterinə təsiri, girovlarla bağlı ABŞ və onun tərafdarları tərəfindən tətbiq edilən blokada, 1980-ci ilin sentybrında başlayan hakimiyyət uğrunda mübarizənin təsirini aid etmək olar.

Yuxarıda deyilən faktların təsiri altında baş verən tənəzzülü aşağıda göstərdiyimiz rəqəmlər də təsdiq edir. 1977/78-ci maliyyə ilində ümumi daxili məhsulun miqdarı 53 milyard dollar idisə, 1979-cu ildə bu rəqəm 45%-ə, 1980/81-ci illərdə isə 36%-ə qədər aşağı düşmüşdü (1, 318).

1982-ci ildən etibarən ümumdaxili məhsulun azalması prosesi dayandırıldı və əvvəlki illərdən 4,2% artıq oldu. Artıq 1984-cü ildə inqilabdan əvvəlki dövrdəki qədər olmasa da ümumi daxili məhsul artaraq 40 milyard dollara yaxın olmuşdu.

Lakin 1985/86-cı illərdə yenidən daxili məhsulun azalması müşahidə olunmaqda idi. Buna səbəb kimi əhali artımı da göstərilməkdədir. Qeyd edək ki, İranda bu dövrdə əhali artımı nəzərə çarpacaq dərəcədə yüksəlmişdi. Əhali artımının orta tempi 4%-ə yaxın olmuşdu və 1986-cı ildə əhalinin sayı 50 milyon nəfərə çatırdı (1, 332).

Ölkənin iqtisadi həyatına, xüsusən büdcənin formalaşmasına təsir edən başlıca mənbə neftdən gələn gəlirlər idi. Ümumdaxili məhsulun 1977/78-ci ildə büdcənin 37%-ə qədərini neftdən gələn gəlirlər təşkil etmişdi. 1980/81-ci ildə bu rəqəm cəmi 5 milyard dollara yaxın idi. 1980/81-ci ildə neftin ixracından gəlir 10,6 milyard dollara qədər aşağı enmişdi ki, bu rəqəm 1976/77 ci illərdəkindən 2 dəfə az idi. Bunun nəticəsində 1981-ci ilin əvvəlində ödəmə balansının kəsiri 4 milyard dollara bərabər idi. Ölkənin valyuta ehtiyatı tükənmək üzrə idi. Bu halda 1984-cü ildə məclisdə çıxış edərkən ölkənin baş naziri Müsəvi etiraf etmişdi ki, valyuta ehtiyatının tükənməsi mühüm problemlərdən biri olaraq indiki hökumətin və quruluşun varlığını təhlükə altında qoya bilər (2, 597).

Lakin 70-ci illərin sonundan dünya bazarında neftin qiymətinin artması İİR-in maliyyəsinin dirçəlməsinə səbəb oldu. 1979-cu il martın 5-dən İran Milli Neft Şirkəti neftin ixracını bərpa etdi. Neft istehsalının azalmasına baxmayaraq, İran hökumətinin gəliri inqilabdan əvvəlkindən bir qədər çox oldu (3, 261).

1979-cu il sentyabrın 28-də yaranan neft nazirliyi ABŞ-ın və onun NATO tərəfdaşlarının İran neftinin satışına qoyduğu embarqoya baxmayaraq, üçüncü dünya ölkələri və sosialist ölkələri hasabına istehsal və ixrac əməliyyatını xeyli artırdı.

Büdcə gəlirinin əsas hissəsini təşkil edən neftin ixrcından gələn gəlirin tanker müharibəsi və Qərb dövlətlərinin embarqosu nəticəsində azalması dövlətin daxili gəlırının də xeyli aşağı düşməsinə səbəb oldu. Neftdən büdcəyə daxil olan gəlir 1983/84-cü ildəki 1 trilyon 585 milyard rialdan, 1985/86-cı ildə 1 trilyon 189 milyard riala, 1986/87-ci ildə 417 milyard riala düşmüşdü. Daxili borcların miqdarı 1983/84-cü ildəki 695 milyarddan, 1986/87-ci ildə 1 trilyon 284 milyard riala qədər artmışdı (4, 68).

Neftin ixracından əlavə İraqla 1980-ci ildən davam edən müharibə də iqtisadi vəziyyətin pisləşməsinə xeyli təsir göstərmişdi. Büdcə gəlrinin 14%-i davam etməkdə olan müharıbənin ehtiyaclarına, bundan əlavə büdcənin 5%-i müharibə nəticəsində dağıdılmış müəssisələrin bərpasına sərf edilirdi. İranın planlaşdırma nazirliyinin verdiyi məlumata görə müharibənin 5 ili ərzində İrana dəyən zərər 24 trilyon 730 milyard riala ( 309 milyard dollar ) bərabər idi. Dəyən zərərin yarıdan çoxu neft sənayesinin payına düşürdü.

Abadan neft emalı zavodunun dağıdılması nəticəsində İran neft məhsullarını xaricdən idxal etməyə məcbur olurdu. İxrac olunan neftin 20%-dən çoxu İspaniya, Cənubi Koreya və digər dövlətlərin neftayırma zavodunda emal olunur və hazır məhsul halında İrana qaytarılırdı. 1987-ci ildə İraq bombardmanları nəticəsində Abadan və Kirmanşah neft emalı zavodları tam, Tehran, Təbriz və İsfahandakı neft emalı müəssisələri tədricən dağılmışdı.

Müharibə zonasında olan bir sıra mühüm iqtisadi obyektlərin tikintisi, o cümlədən Əhvaz metaləritmə və Bəndər-Xomeyni neft-kimya komplekslərinin tikintisi dayandırılmışdı.

İran-İraq müharibəsi, maliyyə çatışmazlığı, ruhanilərin sosial-iqtisadi həyatda danılmaz nüfuzu sənayenin dövlətləşdirilməsi prosesini artırırdı. Bu siyasət mövcud rejimi təmin etsə də, onun iqtisadiyyatın inkişafına müsbət təsiri olmadı.

1981-ci ildən hökumətin və ruhanilərin xüsusi bölməyə münasibəti xeyli dəyişdi. Bu sahənin inkişafı üçün bir sıra tədbirlər həyata keçirilməyə başladı. Xüsusi müəssisələrə güzəştli borc və lisenziyaların sadələşdirilməsi prosesinə başlandı. Hətta əvvəllər milliləşdirilmiş bir sıra müəssisələr məhkəmənin qərarı ilə öz əvvəlki sahiblərinə qaytarıldı (9, s.360-361).

Bununla belə İranın ruhani rəhbərləri daha çox kiçik və orta sahibkarlığı müdafiə edir, onun inkişafına xüsusi əhəmiyyət verirdi.

Kiçik və orta sahibkarlığa yardım etməklə hakim rejim onun kapitalist sisteminə daxil olmasını sürətləndirir və həmçinin əhalinin məşğulluğunu xeyli artırırdı.

İİR-in iqtisadiyyatında konstitutsiyaya əsasən iqtisadiyyatın üç əsas sütunundan birini təşkil edən kooperasiya təşkilatları xüsusi yer tutur. Kooperativ təşkilatlara qeydiyyat zamanı borc götürüləndə bəzi güzəştlər də edilirdi. Onların bir qismi vergilərdən də azad idilər. Sərhəd rayonlarında xüsusi kooperativlər yaradılır ki, onlara da əmtəə alqı-satqısı zamanı bəzi güzəştlər edilirdi.

1984/85-ci illərdə ölkədə 3104 çoxsahəli kooperativ fəaliyyət göstərirdi ki, burada dörd milyona yaxın insan çalışırdı.

İslam rejimi qurulduqdan sonra İranda şəhər kooperativləri daha çox yayılmağa başladı. 1984/85- ci ildə ölkədə 13 min şəhər koperativi fəaliyyət göstərirdi ki, onun 4,2 milyon üzvü var idi (10, s.156-157). Bununla yanaşı ticarət kooperativləri də xeyli inkişaf etmişdi. Burada fəaliyyət göstərən ticarət kooperativlərində üç milyona yaxın insan çalışırdı. Öz mövqeyini kifayət qədər möhkəmləndirən ticarət kooperativləri ruhanilərlə münasibətlərini xeyli

yaxşılaşdıraraq dövlət nəzarətinə qarşı müqavimət göstərməyə başladı. Ticarət kooperativlərinin tələbi ilə hökumət 1984-cü ildə onlara bütün borclarını ödəmək şərti ilə dövlət nəzarətindən çıxmağa icazə verdi.

İslam rejiminin iqtisadi siyasətində müxtəlif ənənələrin mübarizəsində qeyri-istehsal sahələri üstünlük təşkil edirdi. Xarici faktorlardan asılılıq sənayedə böyük və kiçik sahibkarlığın inkişafına ciddi ziyan vurur, müasir səviyyəli tələbat malları istehsal edən müəssisələrin inkişafına mane olurdu. Eyni zamanda kiçik sahibkarlıq əhalinin daimi məşğulluğunu təmin etmirdi. Bu da öz növbəsində iqtisadi və sosial ziddiyyətlərin mənbəyinə çevrilirdi.

İslam rejimi üçün kiçik sahibkarlıqla iri sahibkarlıq arasındakı ziddiyyətlər problemi hal-hazırda da aktual problemlərdən biri olaraq qalır. Bu ziddiyyətlərin mövcudluğu İranın xarici iqtisadi potensialına da mənfi təsir göstərir.

## ƏDƏBİYYAT


1. Алиев А. Иран и Ирак. История и современность. М.: МГУ, 2002, 562 с.
2. Алиев С.М. История Ирана. М.: ИФ РАН-Крафт 2004, 649 с.
3. Алиев С.М. Нефть и общественно-политическое развитие Ирана в XX в. М.: Наука, Главная редакция Восточной литературы, 1985, 299 с.
4. Amuzeqar Jahangir. Iran"s Economy under the Islamic Republic. New-York I.B.Tauris Publishers, 1997, p.404
5. Banisadr A. Eqtesade tohidi. Tehran: Enteşerate enqelabe İslami, 1367, 614 s.
6. Bazarqan M. Mərz miyane din və siyasət. Tehran: Sahame-ye enteşarat, 1341, 541 s.
7. İran İslam Cumhuriyyətinin əsas qanunu. Bakı: Qızıl Şərq, 1993, 96 s.
8. İran Economic Service, Tehran: Sahame-ye enteşarat, 1368, 197 s.
9. Иранская революция 1978-1979 гг. Причины и уроки. М.: Главная редакция Восточной литературы, 1989, 557 с.
10. Мамедова Н.М. Городское предпринимательство в Иране. М.: Главная редакция Восточной литературы, 1988, 205 с.
11. The Boundaries of Modern Iran. Edited by Mc.Lachlan Keith. London UCL Press 1994, p.150


## ЭКОНОМИЧЕСКАЯ ПОЛИТИКА ИСЛАМСКОЙ РЕСПУБЛИКИ ИРАН


**Р.Б.АСЛАНОВ**


## РЕЗЮМЕ


В статье рассматривается основные направления и формы развития предпринимательства, а так же формирование экономической политики в ИРИ. Особое внимание уделено анализу государственного, частного и кооперативного предпринимательства, прежде всего в период формирования законодательных основ Исламской Республики. Здесь же исследуется суть экономической политики правящего режима в начальном периоде существования Исламской Республики Иран.



**Ключевые слова**: экономика, политика, ислам, нефть, Иран

## ECONOMIC POLICY OF ISLAMIC REPUBLIC OF IRAN

**R.B.ASLANOV**

**SUMMARY**

The article discusses the main directions and forms of entrepreneurship, as well as the formation of economic policy in Iran. The particular attention is focused on the analysis of state, private and cooperative enterprises, especially during the formation of the legislative bases of the Islamic Republic. The author investigates the essence of the economic policy of the ruling regime at the initial stage of the existence of the Islamic Republic of Iran.

**Key words:** economy, politics, islam, petrol, Iran